KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 1 (17) 2023

## ƏDƏBİYYATŞÜNASLIQ

Tahirə Əbil qızı Bağırova
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun*
*Aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent*

# YUSİF SƏDƏRƏKLİNİN "ZİYAD-ŞÖVKƏT" DASTANI

***Xülasə:*** *"Ziyad-Şövkət" dastanı Naxçıvan aşıq mühitində aşıq şerinin müxtəlif formaları, saz havaları ilə yanaşı dastan yaradıcılığının da inkişaf etdiyini təsdiqləyir. Ustad aşıqlar klassik ənənələrdən istifadə edərək dastan yaradıcılığına dəyərli töhfələr vermişlər. Epik və lirik növün qovuşuğu olan bu dastan sadə süjet əsasında qurulmuşdur. Məqalədə dastanın təhlili verilmişdir.*

***Açar sözlər:*** *Naxçıvan aşıqları, Sədərək, folklor, saz, aşıq havaları, epos, "Ziyad-Şövkət" dastanı.*

**Tahira Abil gizi Baghirova**

## "Ziyad-Shavkat" epic by Yusif Sadarakli

***Abstract:*** *Dastan "Ziyad-Shavkat" confirms that among the Nakhchivan ashugs, epic poetry developed along with various forms of the ashug poem and Saz moods. Ashug masters made a valuable contribution to the creation of the epic using classical traditions. This dastan, which is a combination of epic and lyrical genres, is based on a simple plot. The article analyzes the dastan "Ziyad-Shavkat".*

***Key words:*** *Nakhchivan ashugs, Sadarak, folklore, saz, ashug songs, epic, "Ziyad-Shavkat" dastan.*

**Таира Абиль Багирова**

## Эпос Юсифа Садаракли «Зияд-Шовкат»

***Резюме:*** *Дастан «Зияд-Шовкат» подтверждает, что в среде нахчыванских ашугов эпическая поэзия развивалась наряду с различными формами ашугской поэмы и сазовыми настроениями. Мастера-ашуги внесли ценный вклад в создание эпоса с использованием классических традиций. Этот дастан, представляющая собой сочетание эпического и лирического жанров, основана на простом сюжете. В статье проводится анализ дастана «Зияд-Шовкат».*

***Ключевые слова:*** *Нахчыванские ашуги, Садарак, фолклор, саз, ашугские песни, эпос, дастан «Зияд-Шовкат».*

**Giriş.** "Aşıq sənəti milli kimliyimizi təsdiq edən zənginliyi ilə yanaşı, ulu baba və nənələrimizin bizlərə bəxş etdirdiyi dəyərli milli sərvətimizdir. Naxçıvan aşıq və şairləri Azərbaycan aşıq sənətinə daim dəyərli töhfələr vermişdir. Epik və lirik növün qovuşuğu olan dastan Naxçıvan aşıq mühiti üçün olduqca səciyyəlidir. Bu mühitin yaradıcı sənətkarları şeir yaradıcılığı ilə bərabər dastan yaradıcılığı təcrübəsinə də malik olmuşdur" [1, s.3-15].

"Naxcıvan aşıq mühitilə bu və ya digər dərəcədə "Ordubadlı Kərim", "Hüseyn-Reyhan", "Ağ aşıq-Süsənbər", "Ziyad-Şövkət" dastanları bağlıdır. Çağdaş Azərbaycan aşıq və şairləri içərisində zəngin dastan yaradıcılığına malik tanınmış sənətkarlardan biri Aşıq Yusif Sədərəklidir" [2, s.70-75].

"Aşıq Yusif 1930-cu ildə Şərur bölgəsinin Sədərək kəndində anadan olmuşdur. Kənd məktəbinin əyani-qiyabi orta məktəbi bitirib. Onun ilk ustadı Əli Nəcəfoğlu olub. Atası Məhərrəm kişi söz dəryası idi. İmkanı olmadığı üçün oğlu üçün həyətlərindəki tut ağacından saz düzəltmişdir. Elə həmin "saz"la Ağ Aşıq Yusif çox hava öyrənmiş,dastanlar söyləmiş, el-oba şənliklərində yaxından iştirak etmişdir. Ağ Aşığın yaxın dostu, xalq şairi Hüseyn Arif onu Azərbaycan Aşıqlarının 4-cü qurultayına nümayəndə seçmişdir. Qurultayda iştirak edərək aşıq sənətinin dərinlikləri barədə həmkarlarına dəyərli fikirlər söyləmişdir. Həmin el aşığı sədərəkli Aşıq qurultayda mükafata layiq olmuşdu. Belə bir xəbər Aşıq Səyyada çatır ki, Ağ Aşıq Yusif Sədərəkdə "bazarkom" olub. Və Aşıq Səyyad dostuna məktub yazıb göndərir. O deyir:

**Eşitmişəm sən bazarkom olmusan,**
**Etibarla dolan, batarsan, aşıq.**
**Ayə, bu sevdan da mübarək olsun,**
**Səhv edib sazı da atarsan, aşıq.**

Cavabında Ağ Aşıq Yusif deyir:

**Məndən salam olsun, Səyyah Məmməd,**
**Ustad sözü el icində alınmır.**
**Bütün aləm olub caz, stilyaqa,**
**O səbəbdən mənim sazım çalınmır** [4, s.88].

Aşıq Yusif 1995-ci ildə Sədərək qəsəbəsində vəfat edib. Prof. M.Qasımlı apardığı araşdırmalar nəticəsində sübut etmişdir ki, "Ziyad-Şövkət" dastanın müəllifi məhz Aşıq Yusif Sədərəklidir.

"Ziyad-Şövkət" dastanı coğrafi baxımdan Naxçıvan regionu ilə bağlı olmasa da dastan Şah Abbas hakimiyyəti illərindən, yəni XVII əsrdən çox sonra yaradılsa da dastançı Şah Abbas hakimiyyəti illərilə bağlamışdır. Dastan hadisələri əsasən Təbriz, Ərdəbil, Şah Abbasın idarə etdiyi Səfəvi dövlətinə daxildir. Görünür, dastançı aşıq məhz Şah Abbasa rəğbəti





olduğundan dastanı onun hakimiyyəti illərinə bağlamağı daha uyğun hesab edib.

Dastan süjetinə görə, keçmiş zamanlarda Ərdəbildə Fətəli xanın Şövkət adında qızı, İzzət xan adlı oğlu varmış. Fətəli xanın Xəlil adlı naxırçı oğlunun adı Ziyad idi. Ziyadla Şövkət aralarında əhd-peyman bağlamışdılar" [2, s.111-114].

"Ziyad ilə İzzət dostluq edirdilər. Bir gün həyətdə oynayarkən Ziyadın əlindən təsadüfən çıxan daş İzzətin gicgahına dəyir. İzzət də yerindəcə keçinir. Ziyad özünü itirir, başa düşür ki,İzzət keçinib. Qorxudan buradan tez qaçmağa qərara alır. Ziyad çöllü-biyabana düşür. Hadisədən xəbər tutan Fətəli xan xəbər alır ki, bu faciəni kim törədib. Qulluqcu deyir ki, Ziyadla İzzət aşıq oynayırdılar. Buna nə olubsa Ziyad eləyib. Fətəli xan Ziyadı tapa bilmədiyi üçün Ziyadın ata-anasını zindana salır. Deyir ki,oğlunun yerini deməsəniz işıq üzünə həsrət qoyacam. Şövkət çox narahat olur və başa düşür ki, Ziyad bunu qəsdən etməyib. Odur ki, nökəri Salmanı çağırıb Ziyadı tapmağı tapşırı Ziyad meşəyə gəlib çıxır. Səhərə yaxın 2 atlının səsini eşidib ağacdan düşür. Atlılara başına gələn dərdini danışır. Onlar da Ziyadı özləri ilə aparır. 2 aya yaxın atlıların evində qalır və onlarla yaxşı münasibəti olur. Ancaq Ziyad ata-anasının aqibətinə görə çox narahat olur. Narahatçılığını dostlarına danışır. Ziyad dostları ilə öz şəhərinə gəlir. Bu zaman Gültəkin qarıdan öyrənir ki, ata-anasını Fətəli xan zindana salıb. Hava qaralanda zindana yaxınlaşır. Nökərlər artıq yatmışlar. Ata-anasını tapıb zindandan xilas edir və səs-küy qopmamış uzaqlaşırlar. Fətəli xan dərd-qəmdən bağrı çatlayıb ölür. Yerinə ağıllı Bəhramı vəzir qoyurlar. Ata-anasının zindandan qurtarmasından Şövkət başa düşür ki, Ziyad sağdır. Ziyada namə yazıb Salmana verib yola salır. Salman yolda atlıya rast gəlir. Bu atlı da Ziyadın dostu olur. Ziyad Salmanı görcək özünü Salmana sevincək yetirir. Ziyad Şövkətin naməsini oxuyur və Salmana deyir:

**Şad xəbərlə gələn qasid,**
**Qurbanam canana mən də,**
**Yollara toz salan qasid,**
**Namə verim ona mən də.**

**Namus, qeyrət ardan ötrü,**
**Alagözlü yardan ötrü,**
**Gülüzlü dilbərdən ötrü,**
**Düşdüm biyabana mən də.**

**Ziyadın dərdini bildir,**
**Görüşmək işi müşküldür.**
**Şövkət bir qəmli guldür,**
**Olmuşam divana mən də** [5, s.451-458].

"Salman atlanıb yola düşür ki, Şövkət xanıma gözaydınlığı versin.
Şövkət xanım deyir:

**Salman, sənə qurban olum,**
**Ağ eylədin üzüm mənim.**
**Yarımdan namə gətirdin,**
**İşıqlandı gözüm mənim.**

Salmana sovqat verir.
Təbriz şəhərindən Cavad adlı tacir oğlu Ələmdar ilə mal satmaq üçün Ərdəbilə gəlir. Ələmdar mal sata-sata gəlib çıxır Şövkət xanım gilin qapısına. Şövkət xanım da gəlib parçalara baxmağa. Ələmdar Şövkət xanımı görcək ona elə vurulur ki, parçaların pulunu da almaq istəmir. Pulu almaq istəmədiyinə görə xanım parçaları qaytarır. Ələmdar kor peşiman evə qayıdır. Cavad oğlunun aşiq olduğunu bildikdə 5-10adamla qızı qaçırtmaq planını düşünür. Tacir bir şeytan qarını xanımın yanına göndərir. Qızı aldadıb qaçırırlar.
Salman səfərdən qayıdanda eşidir ki, Şövkət xanımı qaçırdıblar. Özünü yetirir Ziyadın yanına vəziyyəti danışır. Ziyad dostları ilə yola düşürlər. Soraqlaşa-soraqlaşa Təbrizə çatır. Evində qaldığı qarıya başına gələnləri danışır. Tacir Cavadın oğlu Əlmdarın onun nişanlısını qaçırtdığını danışır. Fatmanisə qarı tacir Cavad və onun oğlu Ələmdarı yaxşı tanıdığını və canla-başla Ziyada kömək edəcəyinə söz verdi.
Ziyad sazı basdı sinəsinə dedi:

**Mən sənə oğulam, sən mənə ana,**
**Amandı, dərdimə bir əlac, nənə.**
**Haq yetirsin səni dinə-imana,**
**Amandı, dərdimə bir əlac, nənə.**

Cavabında Fatmanisə dedi:

**Qarı nənə alsın sənin qadanı,**
**Oğul, mən dərdinə əlac eylərəm.**
**Açıq danış, mən eşidim sədanı,**
**Qorxma, mən dərdinə əlac eylərəm.**

Ziyad bir az arxayınlaşır.
Qarı dedi:
-Oğul şəhərdə danışırlar ki,o bir gözəl qız gətirib, oğlu Ələmdara toy eləyir. Qız da razılığ vermir. Deməli sənin nişanlındı. Ziyad cibindən pul çıxarıb





Fatmanisəyə verir, lakin qarı onun imanlı olduğunu deyib pulu almır. Taki siz bir-birinizə qovuşun deyir.
Ziyad bu zaman cibində olan qızın üzüyünü qarı nənəyə verir. Qarı nənə üzüyü ipək dəsmala büküb düzəlir yola. Bir təhər özünü toy evinə salır. Amma nə qədər dil tökürsə, yalvarırsa onu buraxmırlar gəlinin yanına. Baxmayaraq deyir ki, gəlinin xalasıyam. Bu zaman Şövkət pəncərədən görür ki, bir qarı nə qədər vurnuxursa onu içəri buraxmırlar.Şövkət xanım gəlib deyir ki, qarını buraxın mənim xalamdı.
Qarını çox çətinliklə Şövət xanımın yanına buraxırlar. Şövkət xanım qarı nənə ilə mehribancasına görüşüb qucaqlaşırlar. Qarı nənə Şövkət xanıma deyir ki, narahat olma Ziyad mənim evimdədi,bu üzüyü də sənə göndərib. Şövkət xanım da nənəyə deyir ki,axşam Ziyadı da toya gətir.
Ziyad qarı nənənin məsləhətilə aşıq paltarında Cavad tacirin oğlunun toyuna gəlir. Ələmdar Ziyadı məclisdən getməsini istəyir. Dursuna isə deyir ki, mən səni məclisə gətirmişəm sən də məclisi apar. Bu zaman pərdənin arxasından Şövkət xanım çıxıb deyir ki, aşıqlar bir-birinə bağlama desin, razılaşırlar. Aşıq Dursun nə dedi:

**Arzulayırdım,əlimə keçibsən büyün, aşıq.**
**Əcəb çağımda tapıldı iqbalı yeyin aşıq.**
**Nə səbəbə qədəm qoyub gəlmisən meydanıma,**
**Gətirərəm başına olmazın oyun, aşıq.**

Ziyad nə dedi:

**Ağzını avara qoymq, qafası peyin aşıq.**
**Qurd kimi təpilərəm mən sənə, qoyun aşıq.**
**Çox ucadan yerimə, bil ki, xeyir çəkməzsən,**
**Çəkdirəcəyəm sinənə dağınan düyün, aşıq.**

Nəhayət Ziyad Dursunu bağlayır. Aşıq Dursun sazı köynəyinə qoyub məclisi tərk edir. Buna baxmayaraq Ələmdar Ziyadın da çıxıb getməsini istiyir.Vəziyyəti belə görən Şövkət xanım pərdənin arxasından çıxıb deyir:
Camaat, eşidin:
- Mən Ziyadın nişanlısıyam Ələmdar məni zorla qaçırdib toy eləmək istəyir.
Söz Şah Abbasa çatır. Şah vəziyyəti öyrənib Cavad taciri cəzalandırır. Əmr elədi ona 30 şallax vurdular. Cavad tacir suyu süzülə-süzülə oğluyla kor-peşıman çıxıb getdi. Ziyada isə toy xərci verir. Ziyad Şövkətlə geri dönür,ata-anası onların toyunu edir.

Ziyad dastanı duvaqqapmaynan sona yetirdi:

**Qəfildən çıxdın qarşıma,**
**Niyə göz-qaş elədin sən.**
**Artırdın dərd azarımı,**
**Bir dərdim beş elədin sən.**
**Saz çaldım məclisində,**
**Bir saat guş elədin sən** (5, 484-505).

Göründüyü kimi, dastan sadə süjet əsasında qurulmuşdur.

"Ziyad-Şövkət" dastanı klassik dastanlarımızda bir səviyyədə durmasa da məzmunca yığcam və bitkindir. Müəllifin dastanı başqa dastanlardan istifadə etmə yolu, yaxud sərbəst yaradıcılıq üsulu ilə yaratdığını da demək də çətindir. Dastan yaradıcılığı elədir ki, aşıq-sənətkar özündn əvvəlki klassik dastanlardan bəhrələnərək, onların ayrı-ayrı surət və epizodlarından istifadə edə bilər.

"Ziyad-Şövkət" kimi məhəbbət dastanlarının tədqiqi Naxçıvan aşıq mühitinin bu irslə sıx bağlı olduğunu təsdiq edir.Bir daha məlum olur ki,Naxçıvan aşıq mühitində aşıq şeirinin müxtəlif formaları, çoxsaylı saz havaları ilə yanaşı, dastan yaradıcılığı da inkişaf etmişdir.

## ƏDƏBİYYAT

1. *Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. I cild. – Naxçıvan, 2010. – 505 s.*
2. *Qasımlı Məhərrəm, Allahmanlı Mahmud. Aşıq şeirinin poetik biçimləri və çeşidləri. – Bakı: Elm və təhsil, 2018. – 222 s.*
3. *Seyidov Hacı Tofiq. Ağ Aşıq Yusif Sədərəkli. – Bakı: ADPU-nun mətbəəsi, 2008. – 219 s.*
4. *Sədərəkli Aşıq Yusif. Azərbaycanın incisi – Naxçıvan MR – 85. – Bakı: ADPU-nun mətbəəsi. – 94 s.*
5. *Səfərov Yusif. Naxçıvan aşıq ədəbi mühiti. – Bakı, 2009. – 134 s.*
6. *Səfərov Yusif. Naxçıvan aşıqları və el şairləri. – Naxçıvan: "Əcəmi"Nəşriyyat-Poliqrafiya Birliyi, 2011. – 152 s.*